**Vergi ödəyicilərinin hüquqlarının qorunması diqqət mərkəzindədir**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkədə «İnsan hüquqları günü» kimi qeyd olunur. Sərəncamın icrası ilə bağlı hər il may ayının 18-dən iyun ayının 18-dək «İnsan hüquqları aylığı» keçirilir.

Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı», eləcə də 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsinə yaxşı imkan yaratmışdır. Hər iki proqramın icrası məqsədilə, digər dövlət strukturları ilə yanaşı, Vergilər Nazirliyi tərəfindən də zəruri tədbirlər həyata keçirilir. Bu istiqamətdə mühüm addımlardan biri də vergi ödəyicilərinin qanunla müəyyən olunmuş hüquq və mənafeyinin qorunması məqsədilə Vergi Apelyasiya Şurasının yaradılmasıdır. Şuranın yaradılmasında məqsəd vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) vergi ödəyicilərinin şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) məhkəmədənkənar (məhkəməyə qədər) baxılmasıdır.

Vergi Məcəlləsinin 62-ci maddəsində vergi ödəyicisinin vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət etmək hüququ təsbit edilmişdir. Hər bir vergi ödəyicisi vergi qanunvericiliyinin tətbiqi ilə bağlı vergi orqanlarının qəbul edilmiş qərarları və ya verilmiş cavabları ilə razılaşmadıqda, məhkəmədən əvvəl Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasına müraciət edə bilər. Şikayətlərin və ya mübahisələrin məhkəmədənkənar, Vergi Apelyasiya Şurasında baxılmasının bir sıra üstünlükləri var. Bu halda şikayətçinin ərizəsinə baxılması proseduru və forması sadələşir, vergi ödəyicisi məhkəmə xərclərindən azad olur. Eyni zamanda, Vergi Apelyasiya Şurası qanunla müəyyən olunmuş zaman çərçivəsində vergi ödəyicisinin şikayəti ilə bağlı qərar qəbul edir.

Vergi ödəyicisi səyyar vergi yoxlamaları zamanı tərtib edilmiş aktların müddəaları ilə razılaşmadıqda; kameral vergi yoxlaması zamanı vergilər düzgün hesablanmadıqda; vergi borclarının alınması zamanı qanunazidd hərəkətlərə yol verildikdə; vergi uçotuna alınma və uçotdan çıxarılma proseduru pozulduqda; vergi qanunvericiliyinin tətbiqi ilə bağlı digər şikayətlər üzrə Vergi Apelyasiya Şurasına şikayətlə müraciət edə bilər. Şikayət vergi ödəyicisi tərəfindən şəxsən və ya poçt vasitəsilə təqdim oluna, habelə Vergilər Nazirliyinin internet səhifəsində (www.taxes.gov.az) yaradılmış xüsusi bölmə vasitəsilə elektron formada göndərilə bilər.

Vergilər Nazirliyinə daxil olan şikayət dərhal icraya qəbul edilir və qısa müddətdə baxılaraq həll olunur. Bununla yanaşı, tərəflərin məhkəməyə müraciət etmək hüququ saxlanılır. Vergilər Nazirliyində digər ərizə və şikayətlərə də operativ qaydada baxılır. Bu məqsədlə nazirliyin internet səhifəsində «Video qəbul» bölməsi də yaradılmışdır. Hər bir vergi ödəyicisi bu bölməyə daxil olmaqla nazirliyin məsul vəzifəli şəxsləri ilə birbaşa video əlaqə yarada bilər.

«İnsan hüquqları aylığı» çərçivəsində hər il Vergilər Nazirliyinin aidiyyəti strukturları vergi ödəyiciləri ilə görüşlər təşkil edirlər. Bu görüşlərdə vergi ödəyicilərinin Azərbaycan Respublikası Konstitusiyası, Vergi Məcəlləsi və digər normativ hüquqi aktlarda təsbit olunmuş hüquqları, o cümlədən sahibkarların hüquqlarının müdafiəsi, vergi qanunvericiliyinin izahı və tətbiq olunan yeniliklər barədə məlumatlar verilir.

S.MUSTAFAYEV